**Irine Şubitidze**
Vətəndaş İnteqrasiyası və Millətlərarası Münasibətlər Mərkəzi

## İkidilli təhsildə şagirdlərin akademik nailiyyətlətri üçün ailə amili

**Abstrakt**

Məqalədə təhsil prosesində, xüsusilə də ikidilli təhsil prosesində ailənin/valideynlərin rolu verilir. Uşağın koqnitik-psixoloji və akademik inkişafına böyük təsir göstərən bir neçə mühüm amil mövcuddur: valideynlərin təhsili, onların dünyagörüşləri, övladlarının təhsillərindən gözlənilən nəticələr, təhsil üçün müvafiq mühitin yaradılmasını, ailədə intizamı, təhsil prosesinə onların cəlb olunma səviyyəsini, ev tapşırıqlarının hazırlıq prosesində onun iştirakını nəzərdə tutan dəstəyin verilməsi. Bunlar təhsilin səviyyəsini əhəmiyyətli şəkildə müəyyən edən səbəblərin siyahısının bir hissəsidir. Ailə məsuliyyətlə bölüşməklə həm öz övladı üçün, eləcə də müəllim üçün təlim-təhsil prosesini asanlaşdıra və maraqlı edə bilər. Məqalədə xarici ölkənin təcrübəsi və tədqiqatların misalında ikidilli təhsil prosesində valideynin rolunu təhlil etməyə çalışacağıq, çünki Gürcüstanda ikidilli proqramlar hələ ki, pilotlaşdırılma prosesindədir və bu cəhətdən dərinləşdirilmiş tədqiqalar mövcuddur, hansılar birmənalı nəticələrin edilməsi imkanını verir.

### Giriş

Bir çox hallarda tədris prosesində müəllimin rolu haqqında danışırıq, çoxlu sayda tədqiqatlar keçirilir, çoxlu sayda kitablar və ya məqalələr yazılır, həm müəllimlərin, eləcə də məktəbin administratorları üçün bir çox treninq və seminarlar keçirilir. Heç kimin şübhəsi yoxdur ki, onların ümumi təhsil prosesində, eləcə də ikidilli təhsilin tətbiqində rolları əhəmiyyətlidir, amma buna paralel olaraq təhsil prosesində heç də az əhəmiyyətə malik olmayan ***validevnin rolunu*** inkar etməməliyik. Nailiyyətli təhsil sistemi məhz müəllimin, valideynin və uşağın effektli əməkdaşlığının nəticəsidir. Peşəkar müəllim kimi, valideyn tərəfindən də öz məsuliyyətini tam dərk etmək və paylaşmaq şagirdin akademik nailiyyətini müəyyənləşdirir. İkidilli təhsil prosesində valideynin rolu daha vacibdir.

İkidilli təhsilin aktuallığına baxmayaraq nəinki Gürcüstanda, eləcə də bütün dünyada hələ ki, bir izahat yoxdur ki, tam olaraq ikidilli təhsilin mənasını və təyinatını müəyyənləşdirsin. Bu anlaşılmazlıq valideynlərin çaşbaşlığının daha bir səbəbidir, eləcə də az informasiya şərtlərində. Dilemma qarşısında duran azlıq nümayəndələri olan valideynlər tərəfindən tez-tez səslənilən müəyyən qorxular və suallar var ki, övladlarını ikidilli məktəbə qoysunlarmı, harada uşaqlar ana dili ilə yanaşı, dövlət dilini də öyrənəcəklər və ya yalnız ana dilində təhsil alacaqlar və ya da ki, dövlət dilində təhsil aparılan məktəbə qoysunlar. İkidilli təhsillə əlaqədə olan bu qorxular və mövhumatların səbəbi həm ümumilikdə ikidilli təhsilin, eləcə də onun üstünlükləri haqqında valideynlərin az məlumatlandırılmasıdır. Məqalədə valideynlərin cəlb olunması ilə əlaqədar əsas problemləri və Gürcüstanda 2006-cı ildən bu günə qədər mövcud vəziyyəti təhlil etməyə çalışacağıq. Ümumilikdə, Gürcüstanda ikidilli təhsilin tətbiq edilmə prosesini təsvir edən bir neçə kiçikçiqyaslı tədqiqatların nəticələrini təhlil edəcəyik.

### Təhsil prosesində valideynin rolu

İkidilli təhsil həm valideynlər üçün, eləcə də müəllimlər, məktəbin müdiriyyəti və ümumiyyətlə, tam əhali üçün hələ də yeniliyi təqdim edir. Bu çox mürəkkəb və çoxtərəfli hadisədir və onun lazımi şəkildə həyata keçirilməsi üçün illər və böyük resurslar lazımdır ki, nəticə müsbət olsun. Bir çox treninqlər və ya seminarlar müəyyən şəkildə yeniliyi cəmiyyətə

çatdıra bildi, valideynlər üçün müəyyən şəkildə informasiya çatdırıldı, amma bunlar kifayət etmirlər, xüsusilə də böyük şəhərlərdən və rayon mərkəzlərindən fərqli olaraq hələ də müəyyən informasiya vakuumu və təhsilin nisbətən aşağı səviyyəsi mövcud olan regionlarda. Bu, etnik azlıqların kompakt şəkildə yaşadıqları regionlara da şamil edilir, burada informasiyanın azlığına əhalinin dövlət dilində aşağı dil bilgisi əlavə olunur. Bu da öz növbəsində informasiya izolyasiyasının daha bir əhəmiyyətli dəstəkverici amilidir.

Valideynləri tez-tez bütün yenilik və ikidilli təhsildəki üstünlüklərlə tanış etmək mümkün olmur. Bu da öz növbəsində ikidilli təhsilin effektli şəkildə həyata keçirilmə prosesinə mane olur. Valideynlərin bir çoxu övladlarının ictimai işlərin istənilən sahəsinə inteqrasiyası və cəlb olunması üçün dövlət dilinin tədrisinin üstünülyünü və əhəmiyyətini dərk etmir. Valideynlər dərk etmirlər ki, ali təhsil almaq, gələcəkdə işlə təmin olmaq və ümumiyyətlə, uşağın aktiv vətəndaş kimi formalaşması üçün dövlət dilini bilməsi nə dərəcədə önəmlidir. (Beiker, 2007).

Maraqlıdır ki, valideynin dərs prosesində roluna hansı amillər mane olurlar? Azlıq nümayəndələri olan valideynlərin dominant mədəniyyətə, dilə və xalqa qarşı mənfi münasibətləri uşağın dünyagörüşünün formalaşmasında öz əksini tapır. Bəzən valideynlər düşünürlər ki, ikidilli təhsil zamanı onların övladlarına xüsusi ehtiyacı olan şagird kimi baxacaqlar və bu da onun seqreqasiyasına, dərs prosesindən təcrid olunmasına səbəb olacaqdır. Problemin qarşısının alınması üçün valideynlərin bir hissəsi yalnız ana dilində təhsil alınan məktəbdə övladlarının təhsil almalarını seçirlər, yaxud da dərs prosesinin yalnız dövlət dilində aparıldığı məktəbi seçirlər (Pugliese, 2010).

Ümumiyyətlə, təhsil prosesində valideynin rolu və cəlb olunması haqqında çox söylənib və yazılmışdır da, amma ikidilli təhsil öz mənası ilə daha mürəkkəb haldır, nəinki təkcə ana dilində təhsil almaq. Bunun üçün də valideynin rolu da ikidilli təhsil proqramlarının həyata keçirilmə prosesində xüsusidir. Pilotlaşdırmanın ilkin mərhələsində dövlət dilini bilməməklə yaranmış informasiya vakuumu ikidilli təhsilə qarşı mənfi münasibətlərin formalaşması üçün önəmli ön şərti yaradırdı. Dünyanın müxtəlif ölkələrində keçirilən tədqiqatlar göstərirlər ki, təhsil prosesində valideynin rolu və cəlb olunması, peşəkar müəllim kimi vacibdir. Valideynin cəlb olunması müxtəlif formalarla özünü büruzə verə bilər, ən əhəmiyyətli amillərdən birini isə valideynin və müəllimin **əməkdaşlığı** təqdim edir, xüsusilə də etnik azlıqların ikidilli/çoxdilli təhsili ilə işimiz olduğunda.

Uşağa təhsil prosesində nailiyyət əldə etməsində valideynin və ailənin cəlb olunması və dəstəyi kimi heç nə yardım etmir. Valideynlərin soyuqqanlığı və az dəstək vermələri uşağın akademik nailiyyətinə təsir göstərir. Bunun üçün də valideynlərin dərs prosesində öz rollarının əhəmiyyəti barədə informasiyaya malik olmaları çox vacibdir. Valideynlərin əksəriyyətinin yalnız bir istəyi var ki, övladı nailiyyətli olsun, amma öz rolunu isə əhəmiyyətsiz hesab edir və tez-tez nailiyyətsizliyin səbəblərini müəllimdə, məktəbdə, uşağın özündə axtarırlar. Bütün bu sadalanan amillər şübhəsiz ki, çox vacibdir, amma valideynin rolu onların arasında ən vacib şərti təqdim edir. Məktəbdə, həyatda olduğu kimi, şagirdlərin maraqlandırılması və xoş əhval-ruhiyyə əldə etmələri üçün valideynlər tərəfindən daimi dəstəyin verilməsi çox vacibdir. Uşağın təhsili və ümumiyyətlə, şəxsiyyət kimi formalaşması prosesinə bir neçə amil səbəb olur. Valideynlər adekvat şəkildə övladlarının imkanlarını qiymətləndirməli və bunu nəzərə almaqla onun təhsilini və gələcəyini planlaşdırmalıdırlar. Akademik nailiyyəti asanlıqla əldə edə bilməyən uşaqlara xüsusi diqqət verilməlidir. Uşağın müəyyən geriliyinin və uğursuzluğunun hər bir mərhələsində valideynlərin dəstəyi vacibdir. Dəstək xüsusilə də məktəbin ibtidai pilləsində təhsil alan uşaqlar üçün mühümdür, çünki onlar yeni mühitə və qaydalara uyğunlaşmalı olurlar. Eləcə də hər bir nailiyyət, ən əhəmiyyətsizi belə, valideyn tərəfindən dəstəkləndirilməlidir.

Yazı-oxu bacarıqlarının inkişafı, riyaziyyat və müxtəlif mürəkkəb fənlər – şagirdin məktəbdə üzləşdiyi çətinliklərin tam siyahısı deyil. Onların müəllimlərlə, sinif yoldaşları ilə, yaxud da sadəcə həmyaşıdları ilə problemləri ola bilər. Bəzən onlara sadəcə valideynin simasında – yoldaş lazımdır. Onunla öz fikirlərini bölüşürlər, onlardan məsləhətlər və dəstək alırlar.

Dərs prosesində mövcud çətinliklər və stress valideynin və uşağın yadlaşmasını, ünsiyyət qıtlığını daha da çətinləşdirir. Bu da uşağın özünə qapanmasına səbəb olur. Uşağın və valideynin ünsiyyəti bir çox hallarda uşağın təhsilə olan əhval-ruhiyyəsində əks olunur.

Valideyn müəllimlə birlikdə öz məsuliyyətini mütləq dərk etməlidir. Valideyn tərəfindən öz məsuliyyətini anlaması xüsusilə də kiçiksaylı sinifdə yaxud da təhsilin əsas dili uşağın ana dili olmayan məktəbdə önəmlidir. Valideynlər mütləq uşaqların ev tapşırıqlarının hazırlanmasında iştirak etməli, imkan daxilində ev tapşırığının yerinə yetirilmə prosesini həvəsli və maraqlı etməlidirlər ki, ev tapşırığının hazırlığı uşaq üçün cəza tədbirinə keçməsin (http://math-and-reading-help-for-kids.org/articles/A_Parent% 27s_Role_in_ Edu-cation. html).

Şagirdin təhsil prosesində akademik nailiyyətini ailə və valideynlərin rolu əhəmiyyətli şəkildə müəyyənləşdirir. Bir çox hallarda valideynlərin uşaqların dərslərini hazırlamaqlarına yardım etmək istəkləri olur, amma uyğun səriştələri olmur, məhz bu halda mövcud vakuumun tarazlaşdırılması üçün mərktəbin və ailənin əməkdaşlığı əhəmiyyətlidir.

Valideyn öz məsuliyyətini tam dərk etdikdə uşaqların da təhsillə əlaqədar daha az problemləri yaranır, məktəb onlar üçün sevimli yer olur, bu-rada öz imkanlarını gerçəkləşdirə bilir və dərs prosesi onlar üçün maraqlı olur (Veisi, Xaspe, Lopes, 2006)

2006-2009-cu illərdə PİSA tərəfindən keçirilən tədqiqatın nəticəsi maraqlı və diqqətəlayiqdir. Nəticə uşağın mütaliə səviyyəsinin inkişafı üçün valideynin rolunu daha aydın şəkildə təsvir edir. Bu tədqiqat bütün dünyada 15 yaşlı uşaqlar arasında mütaliənin səviyyəsini təyin etmək üçün keçirilir. Onun nəticəsində müəyyən oldu ki, valideynləri tez-tez məktəbin ibtidai pilləsində uşaqlarına oxuyan və onların inkişafında aktiv iştirak edən 15 yaşlı uşaqların mütaliənin səviyyəsi daha yüksəkdir, nəinki uşaqlarına nadir halda oxuduqları və ya demək olar ki, oxumadıqları və övladlarının təhsilinə az cəlb olunan valideynlərin övladlarının mütaliə səviyyəsi (http://www.pisa.oecd. org/ pag-es/0,2987,en_32252351_32235731_1_1_1_1_1, 00.html).

**Gürcüstanda ikidilli təhsilə olan valideynlərin yanaşması**

Xüsusilə də hal-hazırda azlıqların təhsil məsələsi aktualdır, çünki Gürcüstanın Təhsil və Elm Nazirliyi tərəfindən dəstəyi ilə etnik azlıqların təhsil vasitəsilə fəal inteqrasiyası baş verir, qeyri-gürcüdilli məktəblərdə son ilər ərzində iki/çoxdilli təhsilin bütün Gürcüstan miqyaslı tətbiqi davam edir, azlıqların hüquqlarının tanınmasına və qorunmasına, ölkənin sosial-siyasi və mədəni həyatına, demokratiyanın və dinc inkişafın prosesinə aktiv cəlb olunmasına xidmət edən təhsilin keyfiyyəti yaxşılaşdırılır. Qeyd edilən inteqrasiya prosesində isə ikidilli təhsilə qarşı valideynin fəallığı, cəlb olunması, onların mövqeyi və yanaşmaları yeniliyin tətbiqi prosesinə müsbət və ya mənfi təsir göstərə bilər. Bu təhlükə isə lazımi şəkildə qiymətləndirilməlidir ki, təhlükənin qarşısının alınması üçün adekvat reaksiyanın göstərilməsi qiymətləndirilsin. Bu da ikidilli təhsilin həyata keçirilməsi prosesində valideynərə mane olan amilləri nəzərdə tutur.

Ümumiyyətlə, valideynin rolu və cəlbolunmasının zərurəti barədə təhsil prosesində çox sözlər deyilib və yazılıbdır, amma ikidilli təhsil öz mənası ilə daha mürəkkəb hadisədir, nəinki ana dilində təhsil almaq. Bunun üçün də valideynin də rolu ikidilli/çoxdilli proqramların həyata keçirilmə prosesində önəmlidir.

Adətən, insanların onların həyatına daxil olan hər bir yeniliyə qarşı qorxuları və mənfi münasibətləri olur. İkidilli/çoxdilli təhsilin tətbiqinin ilkin mərhələsində də belə idi. 2006-2007-ci illərdə yerli təşəbbüslərin əsasında İsveçrənin qeyri-hökümət təşkilatlarından biri CİMERA tərəfindən ATƏT-in Milli Azlıqlarının Ali Ofisinin maliyyə dəstəyi ilə Samsğe-Cavaxetidə və Kvemo-Kartlidə ikidilli təhsil daxil edildi və Gürcüstanın qeyri-gürcüdilli əhalisinin kompakt yaşadığı regionların bir neçə məktəbində (əvvəlcə 12 pilot məktəb var idi Samsğe-Cavaxeti və Kvemo Kartlidə idi) pilotlaşdırılmağa başladı. İkidilli təhsil yolu ilə dövlət dilinin tədrisini valideynlər assimilyasiya təhlükəsi kimi qəbul edirdilər. Onlar hesab edirdilər ki, onların regionlarında dövlət dilinin

tədrisinə zərurət yox idi. Valideynlərin nə mənası, nə də ki, təyinatı barədə məlumatları olmayan yeniliyə mənfi yanaşmaları var idi. Yavaş-yavaş valideynlər yeniliklə, ölkədə davam edən sosial-siyasi proseslərlə, tanış olmağa başladılar. Bu yenilik ölkənin bütün vətəndaşlarının dövlət dilini bilməsini məcburi etdi, öz tərəfindən, valideynlər tərəfindən ikidilli təhsil yolu ilə dövlət dilinin tədrisinə olan müsbət yanaşmaların yaradılmasına dəstək verdi. İkidilli təhsilin tətbiq edilməsinə doğru atılan addımları əks etdirən 2007-ci ilin hesabatından artıq valideynlərin yeniliyə qarşı münasibətləri ötən illərlə müqayisədə müsbət idi, onlar məktəblə daha çox əməkdaşlıq edir və dərs prosesinə daha çox cəlb olunmuşdular (Qriqgule, Perini, 2007).

Eləcə də 2009-2011-ci illərdə qeyri-hökümət təşkilatı "Vətəndaş İnteqrasiyası və Millətlərarası Əlaqələr Mərkəzi" tərəfindən həyata keçirilən "Etnik Azlıqların təhsil hüquqlarının ikidilli təhsil yolu ilə müdafiəsi" layihəsini qeyd etmək lazımdır. Layihənin çərçivəsində gürcü, erməni və Azərbaycan dillərində məlumatverici kitabçalar hazırlandı və dərc olundu. Layihə Avropa İttifaqının tərəfindən maliyyələşdirilirdi və qeyd edilən kitabçaların və müxtəlif fəallıqların vasitəsilə Samsğe-Cavaxeti və Kvemo Kartli regionunda ikidilli təhsil və onun üstünlüyü haqqında valideynlərin və ümumiyyətlə, qeyri-gürcüdilli əhalinin məlumatlandırılması məqsədini daşıyırdı (www.cciir.ge <http://www.cciir.ge> ).

2011-ci ilin yanvar-fevral aylarında keçirilən tədqiqata əsasən Təhsil və Elm Nazirliyi tərəfindən ikidilli təhsilin pilotlaşdırılması üçün seçilən 23 pilot məktəbində qeyri-gürcüdilli məktəb direktorlarının sözlərinə görə, valideynlərin qarşıdurması və mənfi münasibətləri çox azdır və ikidilli təhsilin həyata keçirilməsi üçün maneçilik törədən amili təqdim etmir. Amma bir neçə il öncə, valideynlər informasiya qıtlığı üzündən ikidilli təhsili ana dili və mədəniyyəti üçün təhlükə kimi qəbul edirdilər (www.bilingualeducation.ge <http://www. bilingualeducation.ge>).

19.ბილინგვური პროგრამის განხორციელებისას არსებობს წინააღმდეგობა მშობლების მხრიდან




| სრულიად არ ვეთანხმები | არ ვეთანხმები | ვეთანხმები | სრულიად ვეთანხმები | პასუხი არ გასცა |
|---|---|---|---|---|
| 39,1 | 56,6 | 0 | 4,3 | 0 |

Qeyd edilən tədqiqatın əsasında eləcə də çox diqqətəlayiq fakt da baş qaldırdı. Direktorların sözlərinə görə, valideynlərin heç də azlıq təşkil etməyən hissəsi yeniliyə qarşı laqeyd qalır və ikidilli təhsil prosesinə heç bir maraq göstərmir. Bu faktı ekspertlər və direktorların özləri onunla izah edirlər ki, qeyri-gürcüdilli əhalinin kompakt yaşadıqları regionlarda nəinki ikidilli təhsilə, eləcə də ümumi təhsilə qarşı maraq göstərilmir. Bu da öz növbəsində, bu regionlarda təhsilin aşağı səviyyəsində öz əksini tapır (www.bilingualeducation.ge )

20.მშობლების უმეტესობა ნეიტრალურია სიახლის მიმართ




| სრულიად არ ვეთანხმები | არ ვეთანხმები | ვეთანხმები | სრულიად ვეთანხმები | პასუხი არ გასცა |
|---|---|---|---|---|
| 13 | 61 | 21,7 | 4,3 | 0 |

**Nəticə**

Təhsil çoxtərəfli və mürəkkəb bir prosesdir. Onun nailiyyətinə ailə, məktəb və uşağın əməkdaşlığı səbəb olur. Uşağın təhsil prosesində müəllimin, məktəbin, ətraf mühitin rolu çox vacibdir. Amma valideynin düzgün seçimi və onun cəlb olunması təhsilin ibtidai pilləsində nailiyyəti müəyyənləşdirir. Bu pillə uşağın həyatında ən vacib mərhələdir. Məktəbin adminisdtratorları, təhsil mütəxəssisləri və əlbəttə ki, valideynlərin əksəriyyəti etiraf edir ki, tədrisin istənilən mərhələsində akademik nailiyyət üçün ailənin dəstəyi olduqca vacibdir. Bu rol isə xüsusi yüklənməni ikidilli təhsil şərtlərində əldə edir, çünki birdilli təhsildən fərqli olaraq uşaqlar daha çox çətinliklər və qarşıdurmalarla üzləşirlər və bunları dəf etmək üçün valideynlərin dəstəyinə olduqca böyük əhəmiyyət verilir.

Düşünürük ki, bu cəhətdən xarici ölkələrin təcrübəsinə əsaslanmağımız və onların nailiyyətləri ilə bölüşməyimiz yaxşı olardı. Bu nailiyyətlər valideynlərin və müəllimlərin müxtəlif birliklərinin formalaşmasında ifadə olunur, hansı ki, tam ölkənin miqyası ilə təhsil prosesində aktiv olaraq valideynlərin rolu və cəlb olunması üzərində işləyir. Oxşar yanaşma valideynlərə yardım edir ki, dərs prosesində onların rolu daha da artsın və çox mürəkkəb və çoxtərəfli proses olan təhsildə öz məsuliyyətlərini tamamilə dərk etsinlər.

**Tövsiyələr**:

- Valideynlərlə görüşlər;
- Ailə və məktəbin aktiv əməkdaşlığı;
- Valideynlərin məlumatlandırılması vacib-dir ki, onlar uşaqların akademik nailiyyətində öz rollarını və cəlb olunmalarının nə dərəcədə əhəmiyyətli olmasını bilməlidirilər;
- İkidilli təhsilin mahiyyəti və təyinatı haqqında, onun üstünlüyü və təhlükələri haqqında milli azlıqların nümayəndələri olan valideynlərə vaxtlı-vaxtında və düzgün informasiya çatdırmaq lazımdır;
- Dövlət dilinin öyrənilməsinin zərurəti və təhsil yolu ilə övladlarının inteqrasiyasının əhəmiyyəti haqqında valideynlərin məlumatlandırılması vacibdir;
- Məktəbin administratorları valideynləri təhsil prosesinə daha çox cəlb etməlidirlər, hər bir yeniliklə tanışlıq məqsədilə məlumatlandırıcı görüşləri təmin etməli və onlarla birlikdə övladlarının təhsilinə və gələcəyinə aid olan vacib məsələləri birlikdə həll etsinlər.

**İstifadə olunan ədəbiyyat:**

Baker 2007 – C., Baker A Parents' and Teachers' Guide to Bilingualism (third edition)http://books.google.ge/books?id=Tg0K-0rShfEC&printsec=frontcover#v=one page&q&f=false
Jillian K. Pugliese 2010 - Parents Attitudes Towards Bilingual Education Programs and Policy. 2010, May, http://www.acsu.buffalo.edu/~jkp3/Parental Attitudes_BilingualEducation.pdf
Weiss, Caspe, Lopez 2006 – H.B. Weiss, M. Caspe & E Lopez, Family Involvement in Early Childhood Education, 2006, http://www.pisa.oecd.org/pages/0,2987,en_ 32252351_ 32235731_1_1_1_1_1,00.html; http://math-and-reading-help-forkids.org/articles/A_ Parent% 27s_ Role_in_Education. html
Şubitidze, 2011 "İkidilli təhsil" jurnalı, 2011-ci il., #6.
www.bilingualeducation.ge
www.cciir.ge

**Irine Shubitidze**

## Family factors and students' achievement in bilingual education

### ABSTRACT

The article highlights a role of parent in education process with emphasis on context that is common for bilingual education. There're several factors that impact child's cognitive and psychological development and academic achievements: educational background of parents, their world view, attitudes and assumptions, expectations towards the education progress of their kid, support that ensures appropriate learning environment, family context, degree of engagement in learning process of own child, cooperation with teachers, relationship patterns with own child. This is an incomplete list of the conditions that determine the quality of education. While taking responsibility, the parent assists to cohesive flow of teaching and learning processes, raise of motivation of the child and his/her teacher. The article will review the best cases from the world practices and discuses an actual situation in Georgia.